**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Bakı Dövlət Universiteti**

**Tarix fakültəsi**

**Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası**

**Magistratura səviyyəsi üçün**
**(ixtisasın şifri Tarix 060206, Tarix müəllimliyi 060111, Regionşünaslıq 060211, Antropologiya 060207)**

**İF-M6135 İxtisaslaşmanın seçmə fənni**

# "KITABI- DƏDƏ QORQUD" TARİXİ MƏNBƏ KİMİ

## PROQRAM

**BAKI-2019**

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Bakı Dövlət Universiteti**

**Tarix fakültəsi**

**Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası**

**Magistratura səviyyəsi üçün**
**(ixtisasın şifri Tarix 060206, Tarix müəllimliyi 060111, Regionşünaslıq 060211, Antropologiya 060207)**

**İF-M6135 İxtisaslaşmanın seçmə fənni**

# "KITABI- DƏDƏ QORQUD" TARİXİ MƏNBƏ KİMİ

**PROQRAM**

*Bakı Dövlət Universitetinin rektorunun*
*03.12.2018-cı il tarixli R-93*
*saylı əmri ilə nəşr hüququ (qrif) verilmişdir*

**BAKI-2019**

**Tərtib edən:** BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının dosenti **Lalə Ağamirzə qızı Əliyeva**,

**Elmi redaktor:** BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri dosent **Mehman Qəhrəman oğlu Abdullayev**

**Rəyçilər:**
BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının dosenti **Yunis Məsməli oğlu Nəsibli,**
AMEA-nın Tarix İnstitutunun böyük elmi işçisi, t.ü.f.d.**Nigar Rövşən qızı Gözəlova,**

# “KiTABi- DƏDƏ QORQUD” TARİXİ MƏNBƏ KİMİ

## İZAHAT VƏRƏQİ

**Kursun məqsədi:** Tarix fakültəsinin magistr pilləsində təhsil alan magistrantlara misilsiz Oğuz abidəsi olan “Kitabi-Dədə Qorqud” eposunu təhlil etmək və ondan ilkin tarixi mənbə kimi istifadə üçün bilgi verməkdir.

**Kursun əsas vəzifələri:**

- Azərbaycan və eləcə də ümumtürk tarixinin araşdırılamsı üçün eposdan qaynaq kimi istifadənin aşılanması
- Azərbaycan tarixinin bir sıra problemlərinin həllində epik abidənin əhəmiyyətini müəyyən etmək
- Xalqımızın etnik soykök məsələsini araşdırarkən eposa mətn analizi metodunu tədbiq etməyin yollarını öyrənmək.

**Fənnin öyrənilməsinə dair tələblər.** İxtisaslaşma seçmə fənninin öyrənilməsi nəticəsində tələbələr:

- Narravit analiz metodundan xəbərdar olmaq
- Mənbə üzərində işləmək üçün baza biliklərinə sahib olmaq
- Kursun verdiyi bildiləri mənimsəmək
- Müstəqil elmi araşdırma aparmaq üçün nəzəri bilgiləri tətbiq etməyi öyrənmək

**Tədrisin tövsiyə olunan forma və metodları.** Tədrisin əsas növləri – mövzunun müxtəlif aspektlərini əhatə edən mühazirələr və həmin mövzuların diskussiya şəklində müzakirəsinə həsr edilən məşğələlər, öyrənilən mövzulara aid elmi ədəbiyyat və mənbələrlə müstəqil işidir. Mühazirə və

məşğələlərdə həmçinin tarixi xəritələrdən, sxemlərdən, slaydlardan istifadə olunur. Məşğələlər müzakirə və prezentasiya formasında keçirilir

**“Kitabi-Dədə Qorqud tarixi mənbə kimi” seçmə fənninin öyrənilməsi nəticəsində magistrantlar**

**bilməlidirlər:**

- Narrativ və yazılı qaynaqlar üzərində mətn analizi metodunu tətbiq etməyi
- Orta əsr oğuz dil abidəsini oxuyub anlamağı
- Azərbaycanda baş vermiş etno-siyasi prosesləri və etnik kimlik məsələsini;
- Azərbaycan xalqının təşəkkülü prosesini;

**bacarmalıdırlar:**

- Azərbaycan və türk xalqları tarixinin mühüm problemlərinin araşdırarkən epik abidənin tarixi mənbə kimi istifadə etməyi;

**yiyələnməlidirlər:**

- sərbəst şəkildə seçilmiş bir və ya bir neçə mövzu üzərində müstəqil araşdırma aparmaq bacarıqlarına
- əldə edilmiş nəzəri bilikləri tətbiq etmək və auditoriya qarşısında təqdimat etmək bacarıqlarına

“Kitabi-Dədə Qorqud tarixi mənbə kimi” ixtisaslaşmanın seçmə fənni
(İF-M6135) tarix fakültəsinin magistr səviyyəsində təhsil alan magistrantlarının tədris planına daxildir və I kursun yaz semestrində 45 saat (30 saat mühazirə, 15 saat məşğələ) həcmində tədris olunur.

Həmin seçmə fənnin tədrisi nəticəsində magistrantlar gələcəkdə elmi tədqiqatlarında yazılı qaynaqları təhlil etməyi bacaracaq, bu da tarixi keçmişimizi daha dəqiq araşdırmağa xidmət edəcəkdir.

**Bu kursun digər fənnlərlə əlaqəsi.** “Kitabi-Dədə Qorqud tarixi mənbə kimi” ixtisaslaşmanın seçmə fənni “Azərbaycan tarixi”, “Türk xalqları tarixi”, “Şərq xalqları tarixi” və “Qədim və orta əsrlər tarixi” fənləri ilə əlaqəlidir.

“**Kitabi-Dədə Qorqud tarixi mənbə kimi**” ixtisaslaşma seçmə fənninin saatlarının həcmi, mövzu və dərsin növü üzrə bölüşdürülməsi

<table>
<tr><th rowspan="2">№</th><th rowspan="2">Mövzuların adı</th><th>Mühaz.</th><th>Məşğ.</th></tr>
<tr><th colspan="2">saat</th></tr>
<tr><td>1</td><td>Kursa giriş: nəzəri məsələlər</td><td>2</td><td rowspan="3">2</td></tr>
<tr><td>2</td><td>“Kitabi-Dədə Qorqud” eposu üzrə qaynaqlar və epos tarixi qaynaq kimi</td><td>2</td></tr>
<tr><td>3</td><td>“Kitabi-Dədə Qorqud” eposu Azərbaycan və dünya tarixşünaslığında</td><td>2</td></tr>
<tr><td>4</td><td>“Kitabi-Dədə Qorqud”un Drezden və Vatikan nüsxələrinin müqayisəli təhlili</td><td>2</td><td rowspan="2">2</td></tr>
<tr><td>5</td><td>“Kitabi-Dədə Qorqud”un yaşı məsələsi: manuskript və boylarda donmuş zaman</td><td>2</td></tr>
<tr><td>6</td><td>“Kitabi-Dədə Qorqud” boylarının tarixi coğrafiyası</td><td>2</td><td rowspan="2">2</td></tr>
<tr><td>7</td><td>“Kitabi-Dədə Qorqud” boylarınn dili</td><td>2</td></tr>
<tr><td>8</td><td>İslam dini və “Kitabi-Dədə Qorqud” dastanı</td><td>2</td><td rowspan="2">2</td></tr>
<tr><td>9</td><td>Qıpçaqlar və “Kitabi-Dədə Qorqud” boyları: oğuz –qıpçaq münasibətləri</td><td>2</td></tr>
<tr><td>10</td><td>“Kitabi-Dədə Qorqud”da anaxaqanlıq və qədim türk cəmiyyətində qadına münasibətin tarixi izləri</td><td>2</td><td>2</td></tr>
<tr><td>11</td><td>Qədim türk inancı olan tanrıçılığın və qurddan törəyiş əfsanəsinin KDQ-da təzahürü</td><td>2</td><td></td></tr>
<tr><td>12</td><td>“Kitabi-Dədə Qorqud”  boyları və yunan mifologiyası: papaleller, onların şərhi və səbəbləri</td><td>2</td><td>2</td></tr>
<tr><td>13</td><td>“Kitabi-Dədə Qorqud”un semantikası: “Kanqlı”,</td><td>2</td><td></td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | “Bulqar” və s. | | |
| 14 | Etnogenez probleminin öyrənilməsi üçün “Kitabi-Dədə Qorqud” dastanının əhəmiyyəti | 2 | 2 |
| 15 | “Kitabi-Dədə Qorqud” boylarının etnoqrafiyası: eposda xalqımızın etno-mədəni həyatının izləri | 2 | 1 |
| | CƏMİ | 30 | 15 |

## KURSUN MƏZMUNU

### 1. Kursa giriş: nəzəri məsələlər

Epik abidələr tarixi mənbə kimi və onlardan tarixi qaynaq kimi istifadə xüsusiyyətləri.. Narrativ analiz, mətn analizi metodu və onun tətbiq edilməsi yolları. Mətni analiz etməklə epik abidədə saxlanmış tarixi və mifik biliklərin müəyyən edilməsi

“Kitabi Dədə Qorud”un bir dastan olaraq janr xüsusiyyətləri və tarixilik məsələsi. Kitabi-Dədə Qorqudun mənsubiyyət və ad məsələsi. “Kitabi Dədə Qorud”un Oğuz türklərinin ümumi dastanı olması fikri. Dastanın başqa dillərdəki variantları. Türkmənlərin “Qorqut ata” dastanı. [4;5]

### 2. “Kitabi-Dədə Qorqud” üzrə qaynaqlar və epos tarixi qaynaq kimi

“Kitabi Dədə Qorud” boylarının tədqiq edilməsi üçün ilkin qaynaqlar. “Kitabi Dədə Qorud” haqqında məlumat verən tarixi mənbələr. F. Rəşidəddinin “Cami ət-təvarix” əsəri. Əbu Bəkr b. Abdullah b. Aybek Dəvədarinin “Dürər üt-tican” əsəri. Əli Yazıcıoğlu “Oğuznamə”si. Adam Olearius Dədə Qorqud haqqında.

“Kitabi Dədə Qorud” oğuz türkləri tarixinin öyrənilməsində əsas qaynaqlardan biri kimi.

**Qədim türk yazılı abidələri və “Kitabi Dədə Qorud”.** “Kitabi Dədə Qorud” ilə Kül Tiqin, Bilqə Kağan və Tonyukuk abdiələri arasında paralellər; oğuzlarla bağlı ortaq məlumatlar və bu məlumatların təhlili. “Oğuzlarım, türklərim” anlayışları.

**“Manas” dastanı və “Kitabi Dədə Qorud”.** Manas dastanında “Kitabi Dədə Qorud”un təsiri və izləri. “Manas” dastanının “Kitabi Dədə Qorud” -dan yüzillər sonra yazıya alınması və bu səbəblə ikincinin birinciyə təsiri.

İslamın qəbulu məsələsi və bunun hər iki abidədə oxşar şəkildə əks olunması. Oxşar məişət qanun və törələrinin hər iki abidədə var olması. Yaralanmış türk igidlərinin Xızır peyğəmbər tərəfindən sağaldılması və igidlərə ad verilməsi və bunun eyniliklə hər iki abidədə var olması.

**Oğuznamələr və “Kitabi Dədə Qorud”.** Fəzlullah Rəşidəddinin “Cami üt-təvarix” əsərindəki “Tarixi türkan və oğuzan” başlıqlı Oğuznamə, onun quruluşu və araşdırılması.. Rəşidəddin Oğuznaməsi və “Kitabi Dədə Qorud” -da Oğuzlar, onların həyatı, tarixi, boyları haqqında məlumatların qarşılqlı və müqaisəli təhlili. Hər iki abidədə İç Oğuz və Dış Oğuzlar.

Ali Yazıcıoğlu “Oğuznamə”si, onun quruluşu və tədqiqi.“Kitabi Dədə Qorud” -un bəzi boylarının Ali Yazıcıoğlu “Oğuznamə”sində qısa şəkildə əks olunması. Uyğur “Oğuznamə”si və orada təsvir olunan Oğuzlar. Bu məlumatların “Kitabi Dədə Qorud” -da əks olunması. Dastanın daha çox real hadisələri təsvir etməsi. [1;2;3;4;5]

## 3. “Kitabi-Dədə Qorqud” eposu Azərbaycan və dünya tarixşünaslığında

“Kitabi-Dədə Qorqud” dastanının ilk araşdırmaları. Alman mütəxəssisləri ilk tədqiqatçılar kimi. Tarixi qaynaqlarda dastançı Dədə Qorqud haqqında ilkin məlumatlar.

Əlyazmanın tapılması və ilkin tədqiqatı. Jakob Reiske. Heinrich D. Fleischer. Kitabın dərininə tədqiqatının başlanması. Heinrich Friedrich von Diez və onun “Denkwürdigkeiten von Asien in Künsten und Wissenschaften” kitabı. Kitabın Drezden nüsxəsinin köçürülməsi. Berlin nüsxəsinin xüsusiyyətləri. “Basat Təpəgözü Öldürdüyü boyu”n dastanın ilk tərcüməsi kimi. “Kitabi Dədə Qorqud aşiqi” kitabı və H.F. von Diezin külliyatı. Theodor Nöldeke. Wilhelm Grimmin “Dünya Polifemləri antologiyası” və KDQ.

Tədqiqatın Rusiyada davam etdirilməsi. Wilhelm Barthold. Dastanın boylarının ruscaya çevrilməsi. Bartholdun “Турецкий эпос и Кавказ” əsəri. W. Barthold Qorqudun şəxsiyyəti haqqında “Коркуд” və “Еще известие о Коркуде” araşdırmaları.

V.M.Jurminski, N.İ.İlminski, N.A.Kononov, A.Y.Yakubovski, P.Q.Nikolayeviç, A.N.Samoylovic, V.V.Radlov və başqlarının araşdırmaları.

H.Achmed Schmiede. 1958 və 1995-ci illərdə “Kitabi Dədə Qorqud” dastanını alman dilində, 2000-ci ildə isə türkcəmizdə çapı.

**Dastanın Türkiyədə araşdırılması.** “Kitabi Dədə Qorud”-un Türkiyədə araşdırılmağa başlanması. Kilisli Rıfat [Müəllim]. “Kitabi Dədə Qorud”un ilk - 1916-cu il çapı. Muharrem Ergin və dastanın nüsxələrinin müqayisəli təhlili, Kitabın 1958-ci il çapı və onun əsas xüsusiyyətlərei. O. Ş.

Gökyay və onun dərininə tədqiq etdiyi, 1938 və 1972-ci ildə nəşr olunan "Dedem Korkutun kitabı" əsəri.

Zəki Vəlidi Toğanın Oğuzlar haqqında araşdırmaları. Burdurlu İbrahim Zeki. Bahaəddin Ögəlin "Kitabi Dədə Qorqud"un yazılı qaynaqları haqqında araşdırmaları. Fahreddin Kırzıoğlu. Naciye Yılmaz. Orxan Fikri Sərtkaya.

"Kitabi Dədə Qorqud"un ilk dəfə olaraq ingilis dilinə tərcüməsi. 1972-ci ildə F. Sümər və V. S. Walker tərəfindən Texas çapı. Dastanın digər dillərdə olan çapları və onların xüsusiyətləri.

**Dastanın Azərbaycanda araşdırılması.** 20-ci illərin sonlarında Əmin Abid tərəfindən "Kitabi Dədə Qorud"un Azərbaycana gətirilməsi. Dastanın Azərbaycanda araşdırılmağa başlanılması. H Araslı və onun tədqiqatları. Dastanın 1939-cu il ilkin çapı. Kitabın 1950–ci ildə rus dilində çapı. Kitabın 1962 və 1977-ci il Bakı çapları.

"Kitabi Dədə Qorud"un professional formada araşdırılmağa başlanılması. S. Əliyarlı onun tarixi baxımdan araşdırmaları və "Kitabi Dədə Qorud"tarixində ilk dəfə "hərbi demokratiya" və "ciftə krallıq" kimi anlayışların işlədilməsi. "Kitabi Dədə Qorud"un onomastik baxımdan araşdırılması. Kitabda tarix öncəsi zamana dair izlərin tədqiqi.

Ş.Cəmşidovun"Kitabi Dədə Qorud" sahəsində araşdırmaları. Kitabın 1996-ci il çapı.

"Kitabi Dədə Qorqud"un 1300 illiyinin təntənəli qeyd olunması və nəşr olunan kitablar. "Kitabi Dədə Qorqud Ensiklopediyası" və onun xüsusiyyətləri. [4;7;8]

## 4. "Kitabi Dədə Qorqud"un Drezden və Vatikan nüsxələrinin müqayisəli təhlili

**Əlyazmaların xüsusiyyətləri.** Drezden və Vatikan əlyazmalarının xəttatlıq baxımdan müqaisəli təhlili. Hər iki

əlyazmanın boylarının ümumi quruluşu və xüsusiyyətləri. Əlyazmalarının fonetik xüsusiyətləri. Hər iki nüsxənin oxşar cəhətləri.

Drezden nüxsəsinin quruluşu. Bu nüsxənin titul vərəqinin ümumi quruluşu. Boyların xəttatlıq ənənələrinə uyğun formada yazılması. Dastanda 12 boydan əlavə boyların varlığı haqqında fikirlər. Alp Ərən və Bəktüz Əmən. Boyların xronoloji ardıçıllıqla yazılmamasının səbəbləri.

Dastanın Vatikan nüsxəsi. Vatikan nüsxəsinin özünəməxsus xüsusiyyətləri. Vatikan nüsxəsinin araşdırılması. Ettore Rossi və onun "Un nuovo monoseritto del "Kitabi Dede Qorqud"" kitabı. [1;4; 6]

## 5. "Kitabi Dədə Qorud"-un yaşı: manuskript və boylarda donmuş zaman

"Kitabi Dədə Qorud"un yazılma tarixi ilə bağlı mübahisəli məqamlar. Dastanın qələmə alınması ilə bağlı fikirlərə ümumi bir nəzər. Muharrem Erginin fikirləri. Dastanın mövcud olan iki nüsxəsindən hansının orijinal olması məsələsi. O. Ş. Gökyayın bu problem haqqında fikirləri.

Dastanın yaşını müəyyən edərkən bir neçə məsələnin fərqləndirilməsi: hadisələrin baş vermə zamanı; dastanın tərtib edilməsi zamanı (hadisələrin dastana çevrilmə dövrü); dastanın ilk dəfə qələmə alınması zamanı və nəhayət, bizə gəlib çatmış əlyazmanın yaşı.

Kitabın "Müqəddimə"sində Dədə Qorqudun Məhəmməd peyğəmbərin müasiri kimi təqdim olunması. Bununla bağlı dastanın Azərbaycan və Türkiyədə 1300, Türkmənistanda 1400 illiyinin qeyd edilməsi. [4;15;16;19]

## 6. “Kitabi-Dədə Qorqud” boylarının tarixi coğrafiyası

“Kitabi-Dədə Qorqud” boylarındakı hadisələrin cərəyan etdiyi tarixi məkan. V.V. Barthold boyların tarixi coğrafiyası haqqında. V.M.Jirmunskinin mövqeyi. Tarixi-coğrafi etnonimlər: Üç Oq və Boz Oq və bu məsələnin S. Əliyarlı tərəfindən Azərbaycanda araşdırılması. Kitabda “Böriağız” və “Şiröküvəz” anlayışları. “Başıacuq” – gürcülər.

Oğuzların Kiçik Asiyadakı Bayburd. Düzmürd, Amid, Ərzrum və Trabzonda yağılarla qarşılaşması və bu faktın Qədim Oğuz elinin Qafqazdakı metropoliyasının üzə çıxarılmasında rolu.

Oğuzların sərhədi və qonşuları. “Kitabi Dədə Qorud” -a görə oğuzarda sərhəd - uc. Sərhəddın qorunması məsələsi. Oğuzların quzey qonşuları: abxazlar, gürcülər, qıpçaqlar. Dastanda vassallıq məsələsi.

Oğuzların qərb qonşuları; Bizans imperatorluğu, Trabzon təkuru. Dastanda “hay” və ya “erməni” etnonimlərinə rast gəlinməməsi, bir çox ərəb müəlliflərinin bu yöndə məlumatları. Oğuzların ərəblər və farslarla qatşılıqlı əlaqələri.

“Kitabi Dədə Qorqud”da Şimali Aralıq dənizi ölkələri ilə bağlı tarixi hadisələrin izləri. [1;3;4]

## 7. “Kitabi-Dədə Qorqud” boylarınn dili

“Kitabi-Dədə Qorqud” boylarının leksik tərkibi. Dastanda Dil etnik soykökün qaynağı kimi.

Dastan dili şifahi ədəbi dil nümunəsi kimi. Ə.Dəmirçizadə boyların dilində cümlə üzvlərinin, sadə və mürəkkəb cümlələrin ən ümumi cəhətləri haqqında. T.İ.Hacıyev dastanda milli səciyyəsində intonasiyanın, vəzn və quruluşun rolu haqqında. [4;5; 18]

### 8. İslam dini və “Kitabi-Dədə Qorqud” boyları

Boylarda islam dininə dair izlər. Oğuz cəmiyyətinin İslamiyyətə gəlməsi problemi. “Kitabi-Dədə Qorqud” boylarında islamın şiə və sünni qollarına aid izlər.

“Mömin” oğuzlar. Kitabda “Allah-taala” və “Tanqri-taala” ifadələri. İslama tam nüfuz etməmiş oğuzların həyatında qədim türk inanclarının izləri və bunun “Kitabi Dədə Qorud” -da əks olunması. “Qan tenqri” və “Tenqri xan” anlayışlarının tarixi-coğrafi baxımdan araşdırılması. [4;7;8;15]

### 9. Qıpçaqlar və “Kitabi-Dədə Qorqud” boyları: oğuz –qıpçaq münasibətləri

“Kitabi-Dədə Qorqud” Qıpçaqların Azərbaycanla bağlılığını göstərən mötəbər qaynaq kimi. Qalın Oğuz elinin hökmdarı Qazan xanın Ulaş oğlu olması və Rus səlnamələri isə qıpçaq toplumlarından biri-Ulaşeviçlər arasında paralel.

Oğuz – qıpçaq toplumlarının etnogenetik bağlılığını göstərən adətlər – atla basdırma, oxşar qəbir tipləri, daş yonma təsvirlər, ölmüş əcdadın ruhuna sitayiş və s. Oğuz və qıpçaq türkcələrinin yaxınlığı.

Kitabi-Dədə Qorqud boylarında oğuz –qıpçaq münasibətləri. Qıpçaq Məlik, Şöklü Məlik eponimləri. [11]

### 10. “Kitabi-Dədə Qorqud”da anaxaqanlıq və qədim türk cəmiyyətində qadına münasibətin tarixi izləri

“Kitabi-Dədə Qorqud”da anaxaqanlığın izləri. “Qadın ana” və ya “qadınım ana” anlayışları. Humay ilahəsi və onun bu anlayışlarla bağlılığı.

“Ana haqqı-Tanrı haqqı” deyimi. Eyni fikrin Homerin “Odisseya”sında və Esxilin “Oristeya” əsərində əks olunması. Bu haqda elmi araşdırmalar. J.J.Bachofen. Zaman keçdikcə anaxaqanlığı anlayışlarının ataxaqanlığı dövrünə uyğun yeni məzmun alması. “Qız kişi” və “qız oğlan” ifadələri.

“Kitabi Dədə Qorud” və Altun Yaruk abidələrindəki anaxaqanlığı izlərinin bir birini tamamlaması və təsdiq etməsi. “Anası qatun” ifadəsi. Qadın- xatun paraleli.[10;12]

## 11. Qədim türk inancı olan tanrıçılıq və qurddan törəyiş əfsanəsinin “Kitabi-Dədə Qorqud”da təzahürü

“Kitabi-Dədə Qorqud”dakı qədim türk inanclarının-tanrıçılığın izlər. İlkin ana-ata sayılan totem surətləri. Aslan, sunqur və ağac totemləri. Kitabda “görklü dağ” və “görklü su” anlayışları və onların qədim run yazılarındakı müqəddəs “Yer-Sub” anlayışları ilə bağlılığı.

Qurddan törəyiş əfsanəsi ilə Roma Kapitoli canavarı haqqında əfsanə arasında paralellər. Boylarında yunan mifologiyası ilə paralellərin şərhi. Problemin B.Ögəl və S.Əliyarlı tərəfindən araşdırılması. Törəyiş əfsanəsinin məzmunu. Qurddan törəyiş əfsanəsinin xalqımızın yaddaşında qalmış izləri. “Qurd quzuluyur” və “Qurd ağzı bağlamaq”. İslandiyada əfsanənin izləri.

Orta əsr müəlliflərinin əsərlərində bu yönümdə izlər. “burc oğlu”. “İpati Səlnaməsi” və burda qurddan törəyiş izləri. “burçeviç”. “Birücek” toponimi. “Bersil-Barşile-Borcalı” ifadələri.“Kitabi Dədə Qorud” -da törəyiş izləri. “İpati Səlnaməsi” və XI yüzillikdə qurd totemçiliyinin izləri. [4;5;14]

## 12. “Kitabi- Dədə Qorqud” boyları və yunan mifologiyası: papaleller, onların şərhi və səbəbləri

Təpəgöz və onun Homerin “Odisseya” əsərindəki Polifem surəti ilə oxşar və fərqli cəhətləri. Bu yöndə Friedrich von Diezin araşdırmaları. Onun bu surəti Polifemdən üstün tutması. Yunanların Təpəgöz obrazı motivini türklərdən əxs etməsi fikri.

"Duxa Qoca oğlu Dəli Domrulun boyu" ilə “Herakl və Admeta” əfsanəsi arasında paralellər və onların şərhi. [7;8]

## 13. “Kitabi- Dədə Qorqud” un semantikası: “Kanqlı”, “Bulqar” və s.

Dastanın eponimlər silsiləsi. Kanqlı (Kəngər), Dondar, Uşun (Usun). Balqar (Bulqar), Dügər və b. anlayışlar. Bu anlayışların başqa “Oğuznamə”lərdəki adlarla qarşılaşdırılması.

Epik bioqrafiya tarixi qaynaq kimi. Alp Ərən /Etil Alp/ surəti. “Oğuznamə” abidələri silsiləsində olan epik qəhrəman surətinin tarixi Atilla və epik Oğuz xan ilə bağlılığı.

Dastanın onomastikası. Toponimlər. [1;3;7;8]

## 14. Etnogenez probleminin öyrənilməsi üçün “Kitabi-Dədə Qorqud” boylarının əhəmiyyəti

Xalqımızın soykök problemi “Kitabi Dədə Qorqud” boylarında. Azərbaycan xalqının etnogenezini araşdırılması zamanı boylardan əsas qaynaq kimi istifadə olunmasını.

Dastandakı etnonimllər silsiləsi. Oğuzlar və Albanlar. Professor Süleyman Əliyarlı araşdırması: “Kitabi Dədə Qorqud” dastanında qədim Qafqaz Albanlarının Azərbaycan Oğuzları etnik toplumunun bir hissəsi kimi verilməsi fikri. [2;3;6;11]

## 15. “Kitabi-Dədə Qorqud” boylarının etnoqrafiyası: eposda xalqımızın etno-mədəni həyatının izləri

.

**Oğuzların içtimai və dövlət quruluşu.** “Kitabi Dədə Qorqud” üzərində etnoqrafik təhlillər Oğuzlarda mövcud olan içtimai quruluş. “Hərbi demokratiya” çağı. Qazan xanın vaxtaşırı öz evini yağmalatdırması və bü prosesdə bütün oğuzların iştirak etməsi. Bu quruluş haqqında Turlu Qrirorun “Frank Tarixi” əsərində məlumatlar.

“Hərbi demkoratiya”nın əsas təsisatlarından biri olan Ağsaqqallar Şurası. Bu şuranın başısı Aruz. Qoca. Oğuzlarda cəsusluq sisteminin təşkili.

“Kitabi Dədə Qorud”-a görə oğuzlarda dövlət - el. Oğuzların konfederasiyası – Qalın Oğuz. Qalın Oğuza daxil olan 24 sancaq bəyi. Oğuzların dövlət quruluşu. “Kitabi Dədə Qorqud” dastanında “ciftə krallıq” idarə üsulunun izləri. Hakimiyyətin Bayandur xan və Qazan xan arasında bölüşdürülməsi. Bu izlərə Xəzər xaqanlığı və Səlcuq dövləti tarixində rast gəlinməsi. Ərəb qaynaqları “ciftə krallıq” haqqında.

Dövlətin irsiyyət prensipi ilə idarə olunması. Bayandur xan və Qazan xan adları digər qaynaqlarda. Oğuz dövlətinin vəziri Qazılıq qoca. [7;8;9]

## SƏRBƏST İŞ MÖVZULARI

1. “Kitabi Dədə Qorud” boylarının tədqiq edilməsi üçün ilkin qaynaqlar
2. Problemin nəzəri qoyuluşu: epos tarixi qaynaq kim
3. KDQ tarixi mənbə kimi
4. “Kitabi-Dədəm Qorqud” eposu Azərbaycan və dünya tarixşünaslığında

5. KDQ-un Drezden və Vatikan nüsxələrinin müqayisəsi
6. “Kitabi-Dədə Qorqud” dastanının Drezden nüsxəsi tarixi qaynaq kimi
7. “Kitabi-Dədə Qorqud” dastanının Vatikan nüsxəsi tarixi qaynaq kimi
8. “Kitabi-Dədəm Qorqud” boylarınn dili
9. “Kitabi-Dədəm Qorqud” boylarınn leksik tərkibi
10. Dil yaranışın qaynağı kimi KDQ dastanlarında
11. “Kitabi-Dədəm Qorqud” boylarının tarixi coğrafiyası
12. KDQ boylarındakı hadisələrin cərəyan etdiyi tarixi məkan
13. KDQ-un yaşı: manuskript və boylarda donmuş zaman
14. KDQ-un əlyazmaları və onların yaşı məsələsi
15. İslam dini və “Kitabi-Dədəm Qorqud” boyları
16. KDQ boylarında islam dininin mövqeyi
17. Qıpçaqlar və “Kitabi-Dədəm Qorqud” boyları
18. KDQ boylarında oğuz –qıpçaq münasibətləri
19. KDQ-da anaxaqanlıq tarixinin izləri
20. Qurddan törəyiş əfsanəsi və KDQ
21. Qurddan törəyiş əfsanəsi ilə Roma Kapitoli canavarı haqqında əfsanə arasında paralellər
22. KDQ boyları və yunan mifik obrazları
23. KDQ boylarında yunan mifologiyası ilə paralellərin şərhi
24. Qədim türk və Avropa mifologiyasındakı paralellərin səbəbi
25. KDQ-un onomastikası: “Kanqlı”,  “Bulqar” və s.
26. KDQ boylarının semantikası
27. Etnogenez probleminin öyrənilməsi üçün KDQ boylarının əhəmiyyəti
28. Xalqımızın soy-kök problemi KDQ boylarında
29. KDQ boylarındakı şəxs adları eponim kimi

30. KDQ boylarında yunan mifologiyasının izləri
31. KDQ boylarında xalqımızın etno-mədəni həyatının izləri
32. KDQ boylarının etnoqrafiyası
33. KDQ üzərində etnoqrafik təhlillər
34. "Dirsə xan oğlu Buğacın boyu"
35. "Salur Qazanın evinin yağmalandığı boy"
36. "Bayburanın oğlu Bamsı Beyrək boyu"
37. "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"
38. "Duxa Qoca oğlu Dəli Domrulun boyu"
39. "Qanlı Qoca oğlu Qanturalı boyu"
40. "Qazılıq Qoca oğlu Yeynəyin boyu"
41. "Basat Təpəgözü öldürdüyü boy"
42. "Bəkil oğlu Əmranın boyu"
43. "Uşun Qoca oğlu Səgrəyin boyu"
44. "Salur Qazan dustaq olub oğlu Uruz çıxardığı boy"
45. "İç Oğuza Dış Oğuz asi olub Beyrək öldüyü boy"

## ƏDƏBİYYAT

**<u>Əsas</u>**


1. Əliyarlı S. S. Tariximiz açıqlanmamış mövzuları ilə. Bakı: Mütərcim, 2012; 560 s.
2. Əliyarlı S. S. Dədə Qorqud kitabında “Boriağız” və “Şiroküvəz” anlayışları. Dədə Qorqud dünyası. II kitab. Bakı: BDU nəşriyyatı, 2012; 62-75 s.
3. Kitabi-Dədə Qorqud ensiklopediyası: 2 cilddə, I - II cild, Bakı: Yeni nəşrlər evi, 2000. 623 s.
4. “Kitabi Dədə Qorqud”. tərt. və müqəddimə Həmid Araslınındır; red. M. Təhmasib.- Bakı: Azərnəşr, 1939.- 176 s.

**Əlavə**


5. Aliyarlı S. S. Kitab-i Dedem Korkut kitap olmuş mu? / “Türk Kültürü araşdırmaları. Prof. Dr. Muharrem Ergin`e armağan.” Ankara, 1992, s. 81-101
6. Dədə Qorqud araşdırmaları: Folklor, mifologiya və etnoqrafiya. Onomastika, dialektologiya və etimologiya. Pedaqogika, fəlsəfə və psixologiya /Azərb. Dövlət Pedaqoji Un-ti “Dədə Qorqud elmi-tədqiqat mərkəzi”; red. hey. Y.Məmmədov [və b.].- Bakı, ADPU, 2012.-Kitab I.- 309 s.
7. Dədə Qorqud araşdırmaları: Folklor, mifologiya və etnoqrafiya. Onomastika, dialektologiya və etimologiya. Pedaqogika, fəlsəfə və psixologiya /Azərbaycan Dövlət Pedaqoji Universiteti “Dədə Qorqud elmi-tədqiqat mərkəzi”; red. hey. Y.Məmmədov [v. b.].- Bakı: ADPU-nun nəşriyyatı, 2013.- Kitab II.- 316 s.
8. Əliyarlı S. S. “Kağan” titulu haqqında // Tarix və onun problemləri [Akademik Z. M. Bünyadovun 90 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış]. Bakı: Adiloğlu, 2012; s.34-42
9. Əliyarlı S. S. “Dədə Qorqud” kitabında anaxaqanlıq tarixinin izləri.Azərbaycan Filologiyası Məsələləri, II kitab. Bakı, 1984; 47-58 s.
10. Əliyeva L.A. Azərbaycan xalqının etnogenezində qıpçaqların yeri. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2015, 228 s.
11. “Kitabi-Dədə Qorqud ” aşiqi / Tərtibçilər: Dr. H. A. Schmiede, Prof. Dr. S.S.Əliyarlı, Doc. Dr R. Arazova. Bakı: Xəzər universiteti nəşriyyatı, 2002; 213 s.
12. Книга моего деда Коркута. Пер. В. В. Бартолда, Москва – 1962, 564 s.
13. Cəmşidov Ş. A. Kitabi Dədə Qorqudu vərəqləyərkən. Bakı: Gənclik, 1976, 186 s.
14. Dədə Qorqud dünyası. Məqalələr. Bakı: Öndər, 2004, 240 s.

15. Kırzıoğlu M. F. Dede Korkut Oğuznâmeleri. Ankara : Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu, 2000; 114 s.
16. Ögel B. Türk mitolojisi: 2 ciltte, I c, Ankara: TTK basımevi, 1971; 341 s.
17. Sümer F. Oğuzlar (Türkmenler): : tarihleri, boy teşkilatı, destanları. V baskı. İstanbul: TDA vakfı, 1999, 484 s.
18. Бартольд В. В. Работы по истории и филологии тюркских и монгольских народов. Сочинения. В 9-х т. Т5. Москва: Наука, 1968, 752 s.
19. Жирмунский В. М. Тюркский героический эпос. Л: Наука, 1974, 757 s.

Əsas internet resursları:

http://kitab.az
http://www.anl.az
http://www.history.az
http://www.kitabklubu.org
http://www.preslib.az